Ədəbiyyat qəzeti. - 2024.- 13 yanvar, №1.- S. 24.

# Ramiz ƏSKƏR - 70



Hörmətli Ramiz Əskər! Azərbaycanın elmi və ictimai fikri sizi - Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru, türkoloji araşdırmalar elmi-tədqiqat laboratoriyasının müdiri, ədəbiyyatşünas, türkoloq, yazıçı, jurnalist kimi yaxşı tanıyır. Sizin çoxşaxəli fəaliyyətinizi üç rakursdan təhlil etmək mümkündür: jurnalist, alim, tərcüməçi.

Siz orta məktəbi qızıl medalla bitirərək, 1972-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuş, əlaçı tələbə kimi üçüncü kursdan Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinə göndərilmiş, 1978-ci ildə təhsilinizi başa vuraraq Bakıya qayıtmısınız.

Bir neçə il Azərbaycan radiosunun türkcə verilişlər redaksiyasında, sonra Azərbaycan türk, ərəb, fars, ingilis, fransız və alman dillərində nəşr edilən "Azərbaycan bu gün" jurnalının, daha sonra kiril, latın və ərəb əlifbaları ilə çıxan "Odlar yurdu" qəzetinin redaktoru vəzifəsində çalışmısınız. Əvvəlcə, Dostluq Cəmiyyətinin, sonra isə Vətən Cəmiyyətinin orqanı olan bu qəzet ötən əsrin 80-ci illərində vüsət alan milli azadlıq hərəkatının genişlənməsi, milli şüurun oyanması və formalaşması sahəsində mühüm işlər görmüşdür. Siz daha sonra "Hürriyyet" qəzetinin (İstanbul), Uluslararası Xəbər Ajansının (Ankara), "Yeni Forum" jurnalının (Ankara) Azərbaycan üzrə xüsusi müxbiri olmuş, "Xalq qəzeti"ndə, "XXI əsr" və "Meydan" qəzetlərində, Azərbaycan Jurnalistlər Birliyində işləmisiniz.

Jurnalistika sahəsində xidmətlərinizə görə siz "Qızıl qələm" (iki dəfə), "Həsən bəy Zərdabi", "Humay", "Yeni Orhun" (Türkiyə) və "İslama xidmət" (Küveyt) mükafatlarına layiq görülmüş, 2010-cu ildə sizə "Azərbaycanın Əməkdar jurnalisti" fəxri adı verilmişdir. Siz Beynəlxalq Mətbuat İnstitutunun (Vyana), Avrasiya Yazarlar Birliyinin (Ankara), Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Yazıçılar Birliyinin və Özbəkistan Yazıçılar Birliyinin üzvüsünüz.

2003-cü ildən etibarən, siz mətbuatla əlaqənizi kəsmədən elm sahəsinə keçmiş, Bakı Dövlət Universitetinin türkologiya kafedrasında işləmiş, azərbaycanca və rusca "Türk mədəniyyət tarixi", "Türkologiyanın əsasları", "Divanü lüğat-it-türk", "Kitabi-Dədə Qorqud", "Qutadğu bilig", "Manas" üzrə xüsusi kurslar aparmısınız. Siz 2007-2012-ci illərdə filologiya fakültəsi bədii tərcümə elmi-tədqiqat laboratoriyasının müdiri olmuş, həmin ildə türk xalqları ədəbiyyatı kafedrasının, 2017-ci ildə türkologiya kafedrasının müdiri seçilmisiniz. 2023-cü ildən isə türkoloji araşdırmalar elmi-tədqiqat laboratoriyasının müdirisiniz.

Siz BDU-da çalışdığınız dövr ərzində 28 orijinal kitab, monoqrafiya, tədris vəsaiti və proqram yazmış, 300-dən artıq elmi məqalə qələmə almısınız. "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabınız Bişkekdə qırğız dilində çap olunur.

Sizin elmi fəaliyyətinizdə tərcümə işi mühüm yer tutur. Siz türk, özbək, qazax, qırğız, türkmən, uyğur, tatar, başqırd, qaqauz, rus və alman dillərindən milli ədəbiyyatımızı və mədəniyyətimizi zənginləşdirən 66 kitab çevirmisiniz.

Bundan başqa, sizin tərcümələriniz arasında böyük şair və mütəfəkkir Yusif Balasaqunlunun "Qutadğu bilig" poemasını, dahi Əlişir Nəvainin xəmsəsini (5 cild) və risalələrini (2 cild), Faruq Sümərin "Oğuzlar", Bahəddin Ögelin "Türk mifologiyası", Zəhirəddin Məhəmməd Baburun "Baburnamə" kitablarını, Mehri Xatunun və Sultan Hüseyn Bayqaranın divanlarını, Nurməhəmməd Əndəlibin, Dövlətməmməd Azadinin, Məxdumqulu Fəraqinin, Abdulla Şahbəndənin, Molla Nəfəsin, Abdulla Tukayın, Əmirinin, Nadirənin, Toktoqulun, Bəkir Çobanzadənin, Mağcan Cumabayın, Robert Minullinin, Todur Zanetin, Oraz Yağmurun seçilmiş əsərlərini, "Monqolların gizli tarixi"ni, "Türk ədəbiyyatı tarixi"ni (2 cild), özbək və türkmən poeziyası antologiyalarını göstərmək olar. Dövlətimizin başçısı İlham Əliyevin Daşkəndə son səfəri zamanı Özbəkistan prezidenti Şavqat Mirziyoyev sizin Əlişir Nəvai ilə bağlı tərcümələriniz haqqında xoş sözlər söyləmişdir.

Sizin tərcümənizdə Qurbanqulu Berdimühəmmədovun "Axaltəkə atı", Rəcəb Albayrağın "Türklərin İranı" (2 cild), İbrahim Qəfəsoğlunun "Türk milli mədəniyyəti", Osman Turanın "Türk cahan hakimiyyəti məfkurəsi tarixi", nəhayət, N.Ozerovun "İlham Əliyev: Mən Azərbaycanıma inanıram" kitabları da ölkəmizin ədəbi və elmi ictimaiyyəti tərəfindən sonsuz rəğbətlə qarşılanmışdır.

Siz müxtəlif ölkələrdə təşkil olunan 80-dən çox konfrans və simpoziumda iştirak etmiş, maraqlı məruzələr oxumusunuz.

Hörmətli yubilyar! Siz sanballı tədqiqatlarınıza və yüksək səviyyəli tərcümələrinizə görə Türkiyənin "Türk dünyasına xidmət" və "Qızıl alma", Özbəkistanın "Babur", Ukraynanın "Bəkir Çobanzadə", Türkmənistanın "Altın əsr" mükafatlarına, Beynəlxalq Türk Akademiyasının "Vilhelm Tomsen" və "Əlişir Nəvayi" qızıl medallarına, TürkSOY-un, Qazaxıstanın, Özbəkistanın, Qırğızıstanın, Türkmənistanın, Tatarıstanın və Rusiyanın medallarına və ədəbi mükafatlarına layiq görülmüş, 2021-ci ildə "Turan" Elmlər Akademiyasının akademiki, Babur adına Əndican Dövlət Universitetinin fəxri professoru, Nəvai şəhərinin fəxri vətəndaşı seçilmisiniz.

Sizin əməyiniz dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə siz 2014-cü ildə səmərəli elmi və ədəbi-publisistik fəaliyyətinizə görə "Şöhrət" ordeni ilə təltif edilmisiniz. 2022-ci ildə isə Özbəkistan Respublikasının "Dostluq" ordeninə layiq görülmüsünüz.

Hörmətli Ramiz Əskər! Sizi - öz əməyi ilə türk xalqları arasında mədəni əlaqələrin inkişafına mühüm töhfələr verən həmkarımızı 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, sizə sağlam həyat və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**